**HÜSEYN CİDDİ**

# BUĞURT QALASI

**AZƏRBAYCAN DÖVLƏT NƏŞRİYYATI**
**BAKI – 1973**

Şirvanın orta əsr möhtəşəm qalalarından biri də Buğurt qalasıdır. Əlverişli strateji mövqeyinə və əzəmətli istehkamlarına görə dövrünün mühüm qalalarından biri olan Buğurt qalası bir neçə əsr Şirvan hökmdarlarının müdafiə məntəqəsi olmuş, onun hər bir daşı altında Şamaxı tarixinin bir çox sirləri gizlənmişdir. Buna görə də Buğurt qalasının tarixi Şirvan və Şamaxının tarixi ilə sıx əlaqədardır.

Kitabçada Şamaxı, onun müdafiə istehkamlarının və xüsusən Buğurt qalasının tarixi, qalanın coğrafi mövqeyi, strateji əhəmiyyəti və orada aparılmış arxeoloji qazıntıların nəticələri izah edilir. Şübhəsiz ki, kiçik həcmli bir əsərdə Şirvanın bu əzəmətli qalası haqqında hərtərəfli məlumat vermək mümkün deyil. Bu, arxeoloq və memarlarımızın birgə əməkdaşlığı nəticəsində həyata keçə bilər. Əgər oxucu burada Buğurt qalası və onunla əlaqədar abidələr haqqında qısa məlumat əldə edə bilsə, müəllif özünü qarşıya qoyduğu məqsədə çatmış hesab edəcəkdir.

1-6-2
214-73

**Azərnəşr – 1973**

# ORTA ƏSR ŞAMAXI ŞƏHƏRİNİN MÜDAFİƏ İSTEHKAMLARI VƏ BUĞURT QALASININ TİKİLMƏSİ ZƏRURƏTİ

Böyük Qafqaz dağlarının cənub-şərq ətəklərində dəniz sahilindən 749 m hündürlükdə yerləşən Şamaxını şərqdən Pirsaat çayı, şimal və şimal-qərbdən Pirdirəyi və Qız qalası dağları, qərbdən Xınıslı kəndi və Meysəri dağı, cənubdan Zoğalavay çayı əhatə edir. Şamaxı dağlıq rayonda yerləşdiyi üçün onu ətraf sahələrdən də müxtəlif dağ silsilələri əhatəyə almışlar. Şimal və şimal-qərb tərəfdən Binaslı, Tənə, Niyaldağ və Fitdağ silsilələri, qərb, cənub-qərbdən Ləngəbiz dağı ilə yanaşı Ağsunun uçurumları şəhərin ətraf təbii maneələri hesab edilir. Müxtəlif hündürlüklərə malik olan bu dağlardan axan çaylar, saysız-hesabsız şirin bulaqlar ən qədim dövrlərdən bu ərazidə insan yaşayışı üçün şərait yaratmışdır. Təsadüfi deyildir ki, Şamaxı ərazisinin hər guşəsində zəngin mədəniyyət qalıqlarına, vaxtilə əzəmətli bürcləri buludlara çatan qalalara, müxtəlif türbə və məqbərələrə rast gəlmək olar. Arxeoloji tədqiqatın nəticələri hələ 2500 il bundan əvvəl Şamaxının indiki ərazisinə yaxın yerlərdə şəhər həyatına müvafiq yaşayış olmasından xəbər verir. Məhz buna görə də tədqiqatçılar antik ədəbiyyatda adı çəkilən "Kemaxeya"nın Şamaxı olduğunu söyləyirlər[1].

Tovusun gözəl qanadları başına bəla olduğu kimi Şamaxının da zəngin təbii şəraiti, sərvəti və əlverişli coğrafi mövqeyi onu tarix boyu işğalçıların hücumuna məruz qoymuşdur. Bir zaman Sasani şahlarının mərzbanları bu ərazinin strateji əhəmiyyətli nahiyələrini özlərinin müdafiə məntəqəsinə çevirmiş, sonra ərəb canişinləri Şamaxını hərbi idarəedici mərkəz etmişlər. Sasanilər öz imperiyasını qorumaq məqsədi ilə Şirvan ərazisində bir sıra müdafiə istehkamları tikmişlərsə, ərəb canişinləri həmin istehkamların bəzisini bərpa və təmir etməklə kifayətlənmişlər. Sonrakı dövrlərdə yerli feodal dövlətlərinin yaranması ilə əlaqədar bir sıra müdafiə qalaları, o cümlədən Buğurt qalası tikilmişdir. Həmin istehkamların meydana çıxması zərurətini aydınlaşdırmaq üçün dövrün qısa tarixi icmalını nəzərdən keçirmək lazımdır.

Ərəb işğalı ərəfəsində Şirvan hökmdarı Şəhryar idi. O, işğalçılara qarşı müqavimət göstərmiş, nəhayət, bac verməmək şərti ilə təslim olmağa razılıq vermişdir. VII-VIII əsrlərdə ərəb işğalına qarşı mübarizə davam etmiş, nəhayət, bu mübarizə IX-X əsrlərdə xilafətə qarşı müstəqil feodal dövlətlərinin yaranması ilə nəticələnmişdir. Bu dövrdə Şamaxı Azərbaycanın mədəniyyət mərkəzlərindən biri idi. Bəzi mənbələrdə X-XI əsrlərdə «Yəzidiyyə» Şirvanın mərkəzi kimi göstərilir.

---

[1] A. Bakıxanov. Gülüstani-İrəm. Bakı, 1970, səh. 12: Дж.А. Халилов. Раскопки античной Шемахи (tezislər). Bakı, 1964, səh. 16,17.

Tədqiqat nəticəsində məlum olmuşdur ki, Şamaxı həmin dövrdə məzyədilər sülaləsinin banisi Yəzidin şərəfinə «Yəzidiyyə» adlanmışdır.

Məzyədilər xəlifə Hərun Ərrəşid tərəfindən Azərbaycan və Ermənistanın hakimi təyin edilmiş Yəzid ibn Məzyəd Şeybani nəslindən idi. 861-ci ildə bu sülalədən olan Haysam ibn Xalid, xilafət əleyhinə baş verən üsyanlardan və xəlifə Mütəvəkkilin ölümündən istifadə edərək özünü müstəqil elan edir. Onun canişinləri də həmin yolu davam etdirirlər. Bu dövrdə Yəzidiyyə-Şamaxı karvan yolları üzərində məzyədilərin idarəedici mərkəzi kimi inkişaf etməkdə olan feodal şəhəri idi.

X-XI əsrlərdə Şirvan ərazisi şimaldan Sərir və Şandan tayfalarının, cənubdan deyləmilərin hücumuna məruz qalır. Bundan başqa Şirvanşah sarayında ərəb təsirinə qarşı vəzir Əl-Mərağinin başçılığı altında kəskin mübarizə gedir. XI əsrin II yarısında Səlcuq türklərinin təhlükəsi meydana çıxır.

Beləliklə, bir tərəfdən Şirvan hökmdarlarının xilafətə qarşı istiqlaliyyət meylləri, digər tərəfdən Şirvan ərazisinə müxtəlif tayfaların hücum təhlükəsi, habelə hakimiyyət uğrunda gedən daxili mübarizələr şirvanşahları ehtiyatlı olmağa, özlərini xarici və daxili düşmənlərdən qorumaq üçün müdafiə istehkamları tikməyə məcbur edirdi. Təsadüfi deyil ki, həmin dövrdə Şirvanşah Qubad, «Yəzidiyyənin» ətrafına daşla hörülmüş divar çəkdirir. Arxeoloji qazıntılar zamanı Şamaxı ərazisində həmin divarın izləri aşkar edilmişdir. 2,5 m enində olan bu divar təqribən dairəvi formada şəhərin mərkəzi hissəsini əhatə etmişdir. Şübhəsiz təkcə «Yəzidiyyə» istehkamı Şirvan hökmdarlarını qeyd etdiyimiz daxili və xarici düşmənlərdən qoruya bilməzdi. Məhz belə bir tələbat Şamaxı yaxınlığında Gülüstan kimi möhkəm bir qalanın meydana çıxmasına şərait yaradır.

Mənbələrdən aydın olur ki, IX-XI əsrlərdə «Yəzidiyyə»-Şamaxı Gülüstan qalası ilə müdafiə olunurdu. Arxeoloji tədqiqatın nəticələri bu dövrdə həmin qalanın mövcud olduğunu söyləməyə imkan verir[1]. Şəhərin şimal-qərbində ətraf sahədən 200 m hündürlükdə sıldırım qayalı bir dağın zirvəsində tikilən bu qala (şəkil 1) hələ XI əsrin əvvəllərində Şirvanşah Yəzid ibn Əhmədin sarayında baş verən çəkişmələrdə oğlu Ənuşirəvanın müdafiə məntəqəsi rolunu oynamışdır. Bu dövrdə Gülüstan qalası təkcə müdafiə istehkamı deyil, Şirvan hökmdarlarının iqamətgahı idi. Bunu 1067-ci ildə Şirvanşahın xalası Şəmkuyənin Gülüstan qalasında ölməsi faktı sübut edir.

XII-XIII əsrlər Şamaxının orta əsr həyatının çiçəklənməsi dövrü hesab edilir. Bu dövrdə Şamaxı Azərbaycanın elm və mədəniyyət mərkəzlərindən biri idi. Fələki, Xaqani, Zülfüqar Şirvani kimi sənətkarlar məhz bu dövrdə Şamaxıda yaşamış, öz ölməz əsərlərini yaratmışlar. Həmin şairlərin əsərlərində Şamaxı

---

[1] Gülüstan qalasının tikinti quruluşu, qala divarı və bürcləri, oradan əldə edilən arxeoloji tapıntılar haqqında geniş məlumat müəllif tərəfindən yazılmış və 1967-ci ildə nəşr edilmiş «Gülüstan qalası» adlı kitabçada verilmişdir.

haqqında qiymətli məlumatlara rast gəlmək olur. Məsələn, Xaqani[1] ikinci Mənuçöhrə həsr etdiyi tərifnamədə Şirvanşahı Ceyhun qüdrətli bir hökmdar kimi təsvir edib, onun dövründə Şamaxının Səmərqənd ilə bir cərgədə getdiyini və Buxaranı ötdüyünü belə ifadə etmişdir:

Ceyhun kimi qüdrətlisən,
Seyhun kimi şöhrətlisən,
Bizim bu doğma Şirvanı,
Səmərqəndə çevirmisən.
Buxaraya deməliyəm,
Rövnəqini itirmisən.

XII əsrin əvvəllərində Şirvan dövləti cənubdan Səlcuq, qərbdən Aran, şimaldan isə gürcü və onlarla ittifaqa girmiş qıpçaq ordularının vaxtaşırı hücumlarına məruz qalır. Şirvan hökmdarları, xüsusilə II Mənuçöhr (1120-1149) həmin qüvvələr arasında olan ziddiyyətdən istifadə edərək gah gürcülər vasitəsilə səlcuqları, gah da səlcuqlar vasitəsilə gürcüləri Şirvandan qovaraq XII əsrin ortalarında Şərqin qapısında qüdrətli bir hakimiyyət yaradır. Bu dövrdə Şirvanşahın sarayında olmuş Fələki II Mənuçöhrü dövrün qüdrətli hökmdarı kimi belə tərif etmişdir:

Hər yanda ordusu hazır durmuşdur.
Zəfər qoşunları çadır qurmuşdur.
O qədər səndə var ayıqlıq, diqqət
Ki, şahin kəkliyə verməz əziyyət.
Himayətin olmuş belə bir dayaq,
Ki, şir ata bilməz ceyrana dırnaq.

Bu şerdən aydın olur ki, XII əsrin əvvəllərində Şirvan dövləti ölkəyə tam hakim bir vəziyyətdə idi. Məhz buna görə Şirvanşah II Mənuçöhrə Xaqani-kəbir ləqəbi verilmiş idi. Tədqiqatçılar təsdiq edirlər ki, Xaqan ləqəbi orta əsrlərdə başqa dövlətlərdən asılı olmayan hökmdarlara verilirdi[2]. Bunu həmin dövrdə Şirvanşahın adına kəsilmiş sikkələr və yerlərdə oxunan xütbələr də təsdiq edir[3].

II Mənuçöhrün oğlu Axsitan dövründə cənubdan Eldəgizlər dövlətinin, şimaldan Gürcüstan dövlətinin qüvvətlənməsi ilə əlaqədar Şirvan dövləti zəifləyir

---

[1] Xaqani 1120-ci ildə Şamaxı şəhərinin yaxınlığında olan Məlhəm kəndində anadan olmuşdur. O, 1156-cı ildə Məkkə ziyarəti bəhanəsi ilə Şirvanşah sarayını tərk edir. Görünür şair həmin şeri 1-ci səfərindən sonra yazmışdır. Xaqani vətənə qayıtdıqdan sonra yenə saray məhkəməsinə düşür. Şirvanşaha tabe olmayan şair tutulub Şabranda həbs edilir. 7 ay həbsdə qaldıqdan sonra Xaqani öz doğma yurdunu tərk etməyə, ikinci vətəni Təbrizə köçməyə məcbur olur. Şair ömrünun axırına qədər Təbrizdə qalır. 1199-cu ildə həmin şəhərdə vəfat edir. Təbriz əhli Surxab məhəlləsində şairlər qəbiristanlığında onu dəfn edir. Hazırda bu məzar Təbriz əhlinin müqəddəs hesab etdiyi türbələrdən biridir.

[2] В.Э.Бертельс. Низами. М., 1956, səh. 29. 56

[3] А.А.Али-Заде. Социально-экономическая и политическая история Азербайджана. (XIII-XIV вв.) Баку,1958.

və asılı vəziyyətə düşür. Əlbəttə bu vəziyyət Axsitanın hakimiyyətinin (1149-1203) son dövrünə aiddir. Onun hakimiyyətinin ilk dövrlərində Şirvan dövləti qüdrətli olmuşdur. Bu dövrdə Xaqani Axsitan haqqında belə yazırdı:

«Ey Mənuçöhr! Başını torpaqdan qaldır,
Əbülmüzəffərin iqbalını və yeni Şirvanı gör.
Bu elə bir dövlətdir ki, hər saatda.
Yeni qələbə və müvəffəqiyyət əldə edir».

Xaqani hətta başqa bir şerində Axsitanı xəzərlər və alanlara qarşı mübarizədə qalib bir hökmdar kimi göstərərək Abxaz və Rumu fəth etməyə hazırlaşdığını açıq elan edir:

«Hamı belə dedi ki, 580-ci: 1184 ildə
Abxazı ələ keçirərsən, Rumu isə fəth edərsən»[1].

XII əsrdə Şirvanda qüdrətli dövlətin yaranması iqtisadiyyatın inkişafına da böyük təsir edir. Arxeoloji qazıntıların nəticələri göstərir ki, XII əsrdə Şamaxı dövrün mühüm sənətkarlıq mərkəzlərindən biri olmuşdur. Bu dövrdə Şamaxıda Azərbaycan orta əsr şəhərlərinə xas olan müxtəlif sənət sahələri, o cümlədən dəmirçilik, dülgərlik, misgərlik, sümük işləmə, şüşəçilik, toxuculuq və s. inkişaf etmişdi. XI-XII əsrlərdə Şamaxıda zəngin saxsı qablar istehsal edilirdi ki, onların oxşarına Azərbaycanın digər orta əsr şəhərlərində çox az təsadüf edilir. Bu cəhətdən cızma üsulu ilə naxışlanmış, bir və ya çox rəngli şirlə boyalanmış həndəsi və nəbati təsvirli qablar olduqca maraqlıdır (şəkil 2, 3).

Şamaxı ustalarının basma üsulu ilə hazırladıqları orijinal naxışlı şirsiz gil qablara baxdıqda dövrün sənətkarlarının bədii zövqü insanı heyrətləndirir. Bu qablara vurulan naxışlar bizi Nizami, Xaqani dövrünün incəsənət motivləri ilə tanış edir (şəkil 4).

Əldə edilən saxsı məmulatı içərisində oturacağının altında dulus ustalarının möhürləri olan qablar da çoxdur. Bu möhürlərin bir çoxuna indiyə qədər Azərbaycanın orta əsr şəhərlərində təsadüf edilmədiyi üçün onların Şamaxı dulus ustalarına xas olduğunu söyləmək olar.

Şamaxı qazıntılarından çoxlu miqdarda Yaxın Şərq ölkələrindən gətirilmiş fayans qablar tapılmışdır. Feodal və zadəganların məişətində geniş yayılmış bu qablar Şamaxının ticarət əlaqələrini öyrənmək cəhətdən çox maraqlıdır. Eyni sözü Yaxın Şərq ölkələrindən gətirilmiş qablar haqqında da demək olar (şəkil 5).

XII əsr, Şirvanda böyük feodal tikintilərinin aparılması dövrü kimi xarakterizə olunur. Bu dövrdə bir çox ictimai, dini abidələrlə yanaşı böyük müdafiə tikintiləri yaradılır. Mənbələrdə biz XII əsrdə Gülüstan qalasının bərpa və təmiri haqqında məlumatlara rast gəlirik. Bunu arxeoloji tədqiqatın nəticələri də sübut etmişdir. Bu dövrdə Şamaxı qala divarı da yenidən tikilmiş və

[1] Xaqani Şirvani. Külliyyat. Səh. 438.

möhkəmləndirilmişdir. 1970-1972-ci illərdə aşkar edilmiş qala bürcü və divarı bu cəhətdən maraqlıdır. Həmin bürcün diametri təqribən 7 m-dir. Onun şərq tərəfində dördkünc formalı kontrfors tikilmişdir. Qala divarı şərq tərəfə davam etdikcə eyni formalı kontrforslar hər 3,5 m-dən bir təkrar olunur. Dördüncü kontrforsdan sonra isə divar 6,5 m davam edərək trapesiya formalı bürc ilə qarşılaşır (şəkil 6). Arxeoloji qazıntıların nəticələri həmin divarın XI-XII əsr mədəni təbəqəsi üzərində XII-XIII əsrlər arasında tikildiyini göstərir.

Yazılı mənbələrdə qeyd edilir ki, monqol hücumu zamanı Şamaxı əhalisi ilə monqollar arasında kəskin vuruşma gedir. Şəhər əhalisi təslim olmaq istəmir. Nəhayət, işğalçılar meyitləri bir-birinin üstünə qalayaraq şəhərin xəndəyini və divarını aşırlar. Çox güman ki, aşkar etdiyimiz istehkam həmin bürc və divarın aşağı hissəsidir. Bürc və divarın quruluşundan, onun azı 10-12 m hündürlükdə olduğunu ehtimal etmək mümkündür. Azərbaycan EA Tarix İnstitutunun baş elmi işçisi K. Məmmədzadə XVIII-XIX əsrlərdə rus mühəndislərinin Şamaxı qala divarı qalıqlarından çəkdikləri plan əsasında şəhərin qala divarını bərpa etmişdir (şəkil 7).

XIV-XV əsrlərə qədər Şamaxı qala divarı ilə yanaşı Gülüstan qalası da Şirvan hökmdarlarının əsas müdafiə məntəqəsi rolunu oynayır. XIV əsrdə Şirvanşah Kavusun oğlu Hüşəngin tərbiyəçisi olmuş şair Arif Ərdəbili Gülüstan qalasının divarında daşdan yonulmuş insan surətləri olması barədə məlumat verir və onu Axsitan qalası adlandırır.

XV-XVI əsrlərdə Gülüstan qalası yenə də alınmaz istehkam olmuşdur. Belə ki, I İsmayıl Şirvana hücum edib Şamaxı və Bakı şəhərlərini tutursa da Gülüstan qalasını ala bilmir. O, uzun müddət qalanı mühasirədə saxladıqdan sonra öz hərbi sərkərdələrinə «Sizə Azərbaycan taxtı lazımdır, Gülüstan qalası yox» - deyə Şirvandan geri qayıdır. Bu dövrdə Şamaxı qala divarı tam əzəməti ilə mövcud olmuşdur. XVII əsrdə Şamaxını görmüş Almaniya alim və rəssamı Adam Oleari şəhərin divarı və quruluşu barədə belə yazır: «Şəhər təpə üzərindədir... İki ayrıca hissədən ibarətdir. Hər iki hissə divarla əhatə edilir».

Burada şəhərin iki hissədən ibarət olması və hər iki hissənin divarla əhatə edilməsi barədə Olearinin verdiyi məlumat diqqəti cəlb edir. Məlum olduğu kimi orta əsr Azərbaycan şəhərləri əsasən üç hissə: narınqala, şəhristan və rabaddan ibarət olurdu. Narınqala şəhərin strateji cəhətdən ən əlverişli nöqtəsində, ətraf nahiyələri nəzarət altında saxlaya bilən nöqtədə tikilirdi. Burada əsasən şəhərin hökmdarı və dövlət orqanları yerləşirdi. Narınqalanın ətrafını əhatə edən şəhristan hissəsində şəhərin ictimai binaları, bazarlar və tacir dükanları yerləşirdi. Narınqala kimi bu hissə də qala divarı ilə əhatə olunurdu. Divarın ətrafında xəndək qazılırdı. Rabad həmin istehkamların xaricində olurdu. Rabadda əsasən sənət və zəhmət adamları toplanırdı. Təhlükə vaxtı bunlar şəhərin ilkin müdafiəçiləri idilər. Bəzən rabad özü də divarla əhatə olunurdu.

Azərbaycanın orta əsr şəhərləri üçün xarakterik olan bu quruluşu nəzərə aldıqda, demək olar ki, A. Olearinin «Yuxarı hissə» adlandırdığı yer şəhərin

narınqalası, digər hissə isə şəhristanı olmuşdur. Onun Leypsiqə oxşatdığı şimal hissənin divarı çəkdiyi mənzərə rəsmində aydın görünür (şəkil 8). Divarın yarımdairəvi bürcləri və geniş darvazası vardır. Yuxarı hissəsi bir çox orta əsr şəhər divarları kimi diş-dişdir. Narınqaladan bir qədər aralı şəhərin şəhristan hissəsi başlanır. Səyyahın rəsmində şəhristanın ancaq müəyyən hissəsi, narınqalaya yaxın tərəfi görünür. Burada yastı damları olan evlərlə yanaşı hündür minarə də vardır. Çox güman ki, bu minarə Şamaxı Cümə məscidinə aiddir.

Şəhristan hissəsinin divarı narınqalaya nisbətən daha möhkəm və əzəmətli olmuşdur. Bunu A. Olearinin İran-türk müharibələri haqqındakı qeydlərindən də aydın hiss etmək olur. O, yazır: «O, (I Abbas) düşündü ki, şəhərin ortasında olan qalanın (narınqalanın, H. C.) zərəri xeyrindən çoxdur. O, öz istehkamını daha möhkəm divarı olan şəhərin cənub tərəfinə apardı». Sonra o, yazır: «Şəhərin 5 darvazası vardır... Onun divarında mən daşdan yonulmuş iki kişi başı təsviri gördüm. Heç kim bunların nə olduğu barədə mənə bir söz deyə bilmədi».

Bu məlumat XIV əsrdə şair Arif Ərdəbilinin Gülüstan qalası divarları üzərində daşdan yonulmuş insan surətləri haqqında verdiyi məlumata uyğun gəlir. Şair bu surətləri canlı olmaq etibarı ilə Ərtəng rəsmlərinə oxşatmışdır.

Məlum olduğu kimi ən qədim dövrlərdən başlayaraq bir çox şəhərlərin özünə məxsus nişanı olmuşdur. Məsələn, vaxtilə Afina şəhərinin nişanı bayquş, Korinf şəhərinin nişanı qanadlı at, Rodos şəhərinin nişanı isə qızıl gül olmuşdur. Çox ehtimal ki, Gülüstan və Şamaxı qala divarları üzərində olan surətlər şəhərin simvolik nişanı imiş.

Beləliklə, orta əsrlərdə Şamaxı şəhərinin ikiqat qala divarı ilə əhatə olunması aydınlaşır. Bundan başqa şəhərin yaxınlığında olan Gülüstan qalası da təhlükə vaxtı Şirvan hökmdarlarının müdafiə işinə xidmət etmişdir. Lakin XVI-XVII əsrlərdə odlu silahların, xüsusilə topun meydana çıxması ilə Şamaxı qala divarı və onun yaxınlığında olan Gülüstan qalası Şirvan hökmdarlarının müdafiə ehtiyacını ödəyə bilmir. Onlar özlərini strateji cəhətdən daha əlverişli yerdə müdafiə etməli idilər. Bu istehkam nəinki Şamaxı qalası, hətta Gülüstan qalasından da möhtəşəm və alınmaz olmalı idi. Belə bir istehkam ancaq Buğurt qalası ola bilərdi. XVI əsrdən sonra mənbələrdə Buğurt qalası adına geniş təsadüf edilməsini həmin tələbatın nəticəsi kimi qiymətləndirmək olar.

## BUĞURT QALASININ COĞRAFİ MÖVQEYİ VƏ TİKİNTİ QALIQLARI

Buğurt qalası Şamaxı şəhərinin şimal-qərbində, ondan 20 km məsafədə hər tərəfi meşə ilə örtülü olan hündür bir dağın zirvəsində yerləşir (şəkil 9). Qala yerləşən dağı cənubdan Qız qalası və Cənqu (cəngi) dağları, şərqdən Tənə dağı və Alçalı pir meşəsi, şimaldan Ülgüc dağı, qərbdən Qaladərəsi əhatə edir. Bu isə Buğurt qalasının strateji mövqeyinin əlverişli olduğunu göstərir. Belə ki, ən yaxın məsafədən də qala yerləşən dağı görmək mümkün olmur. Tənə dağı ilə Qız qalası dağının cənub ətəkləri arasında Keşmadin (keçmədin), şərq ətəyində Qaleybuğurt kəndləri yerləşir. Qız qalası ilə Cənqu dağı arasında geniş bir dərə vardır. Həmin dərədən bir qədər aralı Çağan (çayqan) kəndi salınmışdır. Bu dərədə hündür sal qayalar qar, yağış və digər təbii hadisələrin təsiri nəticəsində müxtəlif şəkillər almışdır. Bu qayalardan biri yerə oturmuş dəvə fiqurunu xatırladır (şəkil 10). Yerli əhali arasında bu qaya haqqında çoxlu əfsanələr vardır. Bəziləri dəvəyə oxşar bu daş fiqurunu müqəddəs hesab edib ona nəzir-niyaz deyirlər. Qalanın şərq tərəfində meşəliklə örtülü Qaladalı adlı dərə vardır. Bu dərə şimaldan cənuba doğru göz işlədikcə davam edir. Dərənin şərqində Topxana adlı kənd yerləşir. Yerli əhalinin söylədiyinə görə vaxtilə düşmənlər buradan qalanı top atəşinə tutmuşlar. Topxana adı isə bu hadisə ilə əlaqədar meydana çıxmışdır.

Qala yerləşən dağ hər tərəfdən uçurumla əhatə olunur. Qalaya çıxmaq üçün nisbətən əlverişli yol qərb tərəfdədir. Burada dağın döşü boyu meşəlik içərisində ön istehkamlar tikilmişdir. Bu maneələri ötüb keçdikdən sonra dağın lap zirvəsində yerli əhalinin «Şah evi» adlandırdığı narınqala tipli başqa bir istehkam vardır. O, hər tərəfdən uçurumlu qayalarla əhatə olunur. Buraya çıxmaq olduqca təhlükəlidir. Yerli əhalinin dediyinə görə narınqalaya keçidən başqa ayrı heyvan, hətta canavar belə qalxa bilmir. Buna görə də həmin yer keçilərin rahatca otlamaları üçün yeganə təminatlı sahədir.

Buğurt qalası istər yerləşdiyi mövqeyinə, istərsə istehkamlarının quruluşuna görə Azərbaycanda olan başqa orta əsr qalaları, o cümlədən əsrlər boyu onunla sıx əlaqədə olmuş Gülüstan qalasından fərqlənir. Belə ki, orta əsr qalaları adətən bir dağ və ya təpənin üzərində tikilmişlərsə Buğurt qalasının istehkamları bir-birinə bitişik olan, bəzən təbii aşırımlar vasitəsi ilə birləşən dağ silsilələrinin zirvəsindədir. Bu silsilə cənubdan başlayaraq şimala doğru getdikcə yüksəlir və əlçatmaz olur (şəkil 11). Şirvanın bir çox qalaları kimi Buğurt qalası da əsasən müxtəlif ölçülü daşlar və qum-əhəng qarışdırılmış məhlul ilə tikilmişdir. Qalanın ön istehkamı həmin silsilənin qərb döşü və şərq tərəfdən dağın zirvəsi istiqamətində təqribən düzbucaq formada 1800X250 m sahəni əhatə edir. Bu əzəmətli divarın eni təqribən 5 m-dir. Onun bir çox hissələrini hazırda müşahidə etmək mümkündür. Bəzi yerlərdə isə divarın yalnız izləri qalmışdır. Həmin istehkam ilə əlaqədar bir sıra tikintilər də vardır ki, onların xarabaları hazırda

qalmaqdadır. Bunlardan birisi qalanın cənub-qərb küncünü təşkil edən Qız qalası adlı dağın zirvəsindədir. Bu dağ həqiqətdə qalanı cənub tərəfdən qoruyan təbii maneələrdən birisi hesab edilir. Burada əlverişli strateji bir mövqedə dairəvi bürc tikilmişdir. Bürcün diametri təqribən 3,5 m-dir. Onun arxasında 15x5 m ölçüsündə dördkünc tikinti qalığı vardır. Bura yəqin ki, qalanın əsas gözətçi bürclərindən biridir. Həmin bürcə bitişik olan divar 10-12 m şimala doğru davam etdikdən sonra dağın relyefinə müvafiq olaraq düzbucaq formada şərqə tərəf əyilir, sonra yenə də dağın yuxarı döş hissəsi ilə şimal istiqamətində təqribən 240-250 m uzununda davam edərək başqa bir dairəvi bürcə çatır. Həmin bürcün yaxınlığında, ona bitişik düzbucaq formalı başqa tikinti vardır. Bu tikinti divardan təqribən 20 m qərbə tərəf davam etdikdən sonra düzbucaq formada cənuba doğru əyilir. Buranın da iki dağarası gözətçi məntəqəsi olduğunu söyləmək mümkündür. Həmin tikintidən yenə də 250 m şimala doğru divar davam etdikdən sonra (burada divarın yalnız izi qalmışdır) çox mürəkkəb formalı bir tikintiyə təsadüf etmək olur. Üç gözdən ibarət olan bu tikintinin qərb tərəfində, təqribən 15-20 m uzunluqda, 5 m enində divar qərbə tərəf uzanır. Buradan vaxtı ilə hərbi hissələr yerləşdirmək üçün istifadə edildiyi ehtimal oluıur. Eyni əhəmiyyətə malik başqa bir tikinti, divarın 200 m davam edib sona çatdığı yerdə də vardır. Bürc formasında olan bu tikinti 35-40 m qərb tərəfə doğru çəkilmiş divarın qurtaracağındadır. Həmin divar və bürc Qaladərəsini nəzarət altında saxlamaq üçün ən əlverişli məntəqə hesab edilə bilər. Burada yarımdairəvi bürcün arxasında eni 1,40 m, hündürlüyü 4 m və uzunluğu təqribən 6 m olan dəhliz formalı yer vardır. Qaladərəsinə baxan divarda gözətçi deşikləri düzəldilmişdir (şəkil 12).

İstehkamın şimal divarının ancaq izləri qalmışdır. Burada heç bir tikinti qalığı yoxdur. Qalanın qərb divarı kimi şərq divarının, yəni dağın zirvəsi ilə çəkilən divarın içəri tərəfində bir sıra tikintilər vardır.

Şah evi qala yerləşən dağların ən yüksək zirvəsindədir (şəkil 13). Narınqala vəzifəsini ifa etmiş bu bina hər tərəfdən uçurumla əhatə olunur. Bina qayaların arxasında gizlənmişdir. Belə ki, tam zirvəyə qalxmayınca onu müşahidə etmək olmur. Burada bir-birinə bitişik üç otaq qalığı vardır. Otaqların tavanları və şimal divarları dağılmışdır. Buna görə onların ölçülərini müəyyənləşdirmək mümkün deyil. Binanın salamat qalmış cənub küncləri oval formadadır. Şah evinin şimal tərəfində dağın yamacları istiqamətində bir-birindən təqribən 200-250 m aralı qoşa divar çəkilmişdir. Bu divarlardan başqa, dağın əlverişli çıxış yerlərində də müxtəlif sədd və maneələr tikilmişdir. Bunlar şimal tərəfdən şah evini müdafiə edən istehkamlardır (şəkil 14).

Qeyd etdiklərimizdən aydın olur ki, Buğurt qalası öz tikintiləri və istehkamları etibarilə olduqca nəhəng və mürəkkəb bir quruluşa malikdir. Böyük bir sahəni əhatə edən bu qalanın tikilməsində saysız-hesabsız insan qüvvəsi, dövrün məharətli memar, bənna və daş yonanları iştirak etmişlər. Bu tikintilərin hər bir guşəsində donmuş insan əməyi öz ahəngdarlığı ilə indi də səslənməkdədir.

Şübhəsiz ki, bu barədə ətraflı fikir söyləmək bizim səlahiyyətimizdən xaricdir. Ancaq bunu deyə bilərik ki, başqa orta əsr qalaları kimi bu qala da öz istehkamlarına görə iki hissədən: ön istehkam və narınqaladan ibarətdir. Birincinin tikilişində çay daşı və böyük həcmli yonma daşlardan istifadə edilmişdir. Narınqala isə ancaq yaxşı yonulmuş daşlarla tikilmişdir. Ön istehkam öz tikinti xüsusiyyətinə görə Gülüstan qalasına, narınqala isə Bakı Şirvanşahlar sarayı tikintisinə uyğun gəlir.

Buğurt qalası, Qaleybuğurt, Keşmadin, Çağan kəndləri və Topxana adlı yer haqqında xalq arasında bir sıra rəvayətlər vardır ki, onlar qalanın tarixini aydınlaşdırmaq cəhətdən müəyyən əhəmiyyətə malik olduğu üçün bu barədə qısa məlumat verməyi məqsədəuyğun hesab edirik.

A. P. Fituni Sultan Ağa adlı bir kişinin verdiyi məlumata əsaslanaraq bu qalanın Bığır xan tərəfindən tikildiyi üçün Bığır qalası adlandığını söyləmişdir. O, əlavə edir ki, Qaladərəsi həmin vaxtdan etibarən Bığır xanın şərəfinə Bığırdərəsi adlanmışdır[1]. Bu fikir həqiqətə uyğun deyildir, çünki, qeyd etdiyimiz kimi, hazırda bu dərə Bığırdərəsi deyil, Qaladərəsi adlanır. Digər tərəfdən A. P. Fituninin qeyd etdiyi Bığır xandan əvvəl bu yer qala yaxınlığında olduğu üçün Qaladərəsi adlanmışdır. Deməli, Bığır xandan əvvəl də Buğurt qalası mövcud olmuşdur. Əgər yerli əhalinin dediyinə əsaslanmış olsaq, burada keçmişdə Bığır xan deyil, Bığır ya Buğur adlı türk tayfası yaşamış və həmin tayfa bu qalanı tikdirdiyi üçün Buğurt qalası adlanmışdır. Əldə olan məlumata görə bu tayfa olduqca döyüşkən olmuş, sonralar həmin ərazidən Göyçayın yaxınlığına köçmüşdür. Hazırda Göyçayın yaxınlığında Bığır adlı kənd vardır. Tədqiqatçılar bunların türk tayfası olduğunu ehtimal edirlər[2].

Buğurt ya bığır sözünün etimologiyasına gəldikdə çox güman ki, o, qartal mənası daşıyan berkut sözündəndir. Bu məna Buğur ya Bığır tayfasının döyüşkən olmasına və Buğurt qalasının möhkəm, əlçatmaz dağda yerləşməsinə də uyğun gəlir. Berkut adlı qala Orta Asiyada Xarəzm yaxınlığında da vardır. Çox ehtimal ki, Qaleybuğurt Berkut qalası sözünün farslaşdırılmış formasıdır. Qalanın yaxınlığında olan Qaleybuğurt kəndi də şübhəsiz ki, öz adını həmin qaladan almış, çox güman ki, bu kənd Berkut tayfasının ilk məskəni olmuşdur.

Keşmadin kəndinin adına gəldikdə yerli əhalinin söylədiyinə görə, vaxtilə İran şahı Buğurt qalasını mühasirəyə alıb şirvanşaha bildirir ki, təslim olduğu təqdirdə onun qanından keçəcəkdir, daha doğrusu, şahı öldürməyəcəkdir. Şirvanşah qaladan enir və indiki Keşmadin kəndi ərazisində təslim olur. Lakin şah, Şirvan hökmdarını öldürüb, onun yerə tökülmüş qanının üstündən keçir, bununla

---

[1] А.П.Фитуни. История последней столицы Ширвана. Аз. КОМСТАРИС, Bakı, 1927, səh. 106.

[2] Bu barədə şifahi olaraq İ. M. Cəfərzadə, M. X. Şərifli və R. M. Vahidov yoldaşlar bizə məlumat vermişlər.

da öz əhdinə «sadiq» qaldığını göstərmək istəyir. Həmin tarixdən bu kəndin adı Keçmədin (şirvanşahın qanından keçməmək nəzərdə tutulur) qalır.

Eləcə də Çağan kəndinin haqqında belə rəvayət var ki, vaxtilə şirvanşah bu kəndin yaxınlığındakı çayda düşmənlə vuruşur, çoxlu adam yaralanıb ölür. Nəticədə çayın suyu qana bulaşır. Bu tarixdən həmin çay «Çayqan» və yaxınlıqdakı kənd isə eyni adla şöhrətlənir, sonralar bu ad Çağana çevrilir. Yaxınlıqda Cənqu (cəngi) dağı və Cənqu meşəsi də həmin hadisə ilə əlaqədar belə adlanmışdır. Mənbələrdən aydın olur ki, I İsmayılın Şirvana hücumu zamanı Gülüstan qalası ilə Buğurt qalası arasındakı meşədə kəskin vuruşma baş verir. Çox ehtimal ki, Cənqu və ya Cəngi[1] adı bu dağ və meşəyə həmin müharibədən sonra verilmişdir.

## QALEYBUĞURT VƏ QIZ QALASI

Qeyd etdiyimiz kimi Buğurt qalasının cənub hissəsində xalq arasında Qız qalası adı ilə məşhur olan dağ yerləşir. Qalanın bəzi ətraf kəndləri kimi Qız qalası haqqında da xalq arasında bir sıra rəvayətlər vardır ki, bunlar bəhs etdiyimiz ərazinin tarixini öyrənmək üçün maraqlıdır. Söylənildiyinə görə vaxtilə burada hakim olmuş qız öz düşmənini öldürüb, həmin qalanın divarına basdırmışdır. O, vaxtdan bu dağın adı Qız qalası dağı qalmışdır.

Məlum olduğu kimi Qız qalası adlı abidələr Azərbaycanda geniş yayılmışdır. Bunlardan Bakı Qız qalası, Şamaxı, İsmayıllı, Vartaşen, Qutqaşen, Qazax, Yardımlı və s. rayonlardakı Qız qalalarını göstərmək olar. Qız qalaları Dağlıq Qarabağ Vilayəti, Naxçıvanda və Cənubi Azərbaycanda da vardır.

Qız qalası adlı istehkamlar təkcə Azərbaycana aid deyildir. Bu adda qalalar Qara dəniz ətrafında, Orta Asiyada da vardır. Qız qalalarına İranda, İraqda, hətta Hindistanda və Avropada da rast gəlmək olur. Məsələn, Qara dəniz ətrafındakı Qız qalalarından biri Krımda Beş-Taunun (Beş dağ-H. C.) şərqində, sıldırım qayalı dağın zirvəsində yerləşir. O, Qız germen (Qız qalası) adlanır. Burada digər Qız qalası adlı istehkam Bağçasaray rayonunda Əski germen adlı yerdədir. Mütəxəssislər həmin qalaları VIII-IX əsrlərə aid edirlər. Qara dəniz ətrafında olan Qız qalalarının bir çoxunun Türkiyə ərazisində yerləşməsi şübhəsizdir. Orta Asiyada bu tip istehkamlar Köşk Qızqala adlanır. Onlar da dövr etibarilə XI əsrdən əvvələ aiddir.

Qız qalaları İran ərazisində də çoxdur. Onlar «Qaleyedoxtər» adlanır. Bunlardan fars əyalətində Firuzabad şəhəri yaxınlığında, Qum və Tehran ətrafında olan Qız qalalarını və Kirman Qız qalasını göstərmək olar. Bu qalaların heç birisi arxeoloji cəhətdən tədqiq olunmamışdır. İranın elmi nəşriyyatlarında yalnız

[1] Cəngi farsca döyüşkən deməkdir.

Kirman Qız qalası haqqında məlumata rast gəlmək olur. Bu qala hündür bir təpənin üzərindədir. Tikinti qalıqları burada qala tipli istehkamdan başqa dini xarakter daşıyan binaların olduğunu göstərir. Firdovsinin «Şahnamə» əsərində Kirman Qız qalasının adına rast gəlmək olur. O, bu qalanın Sasanilər dövründə mövcud olduğunu söyləyir.

İraqda olan Qız qalası haqqında İbn-əl-Əsir məlumat verir. O, bu qalanı «Hisn-Əl-mirə» adlandırır. Bu isə ərəbcə Qız qalası deməkdir. Hindistandakı Qız qalası isə Beyhəqidə «Qələtülüzra» adı ilə qeyd olunur. Bu da ərəbcə toxunulmamış, fəth olunmamış qala deməkdir.

Beləliklə, göründüyü kimi Qız qalası adlı abidələr Hindistan və İraqdan tutmuş, Orta Asiya, Qara dəniz ətrafı və Avropaya qədər geniş bir sahədə yayılmışdır.

İndi belə bir sual qarşıya çıxır: Qız qalalarında nəzərdə tutulan qız məfhumundan məqsəd nədir?

Tədqiqatçılarımız Qız qalalarının tarixindən, xüsusilə Bakı Qız qalasından danışarkən bu adın nə kimi məna daşıması məsələsinə də bəzən toxunmuşlar. Lakin bu barədə söylənilən mülahizələr əksər hallarda Qız qalaları haqqında xalq arasında yayılan əfsanələr əsasında izah edilir. Bu əfsanələr isə qızların faciəli eşq macəraları ilə əlaqədardır.

Əfsanələrdən başqa bəzi tədqiqatçılar Qız qalası sözündə olan «qız» məfhumunun müəyyən mənalar daşımasına dair bir sıra mülahizələr də irəli sürmüşlər. Lakin bu mülahizələrin bir çoxu həqiqətə uyğun gəlmir. Bəzən də bu barədə söylənilən mülahizələr elmi dəlillər və tarixi hadisələrlə əsaslandırılmır. Məsələn: R. Haqqının yazdığına görə Bakı Qız qalası «Uğuz» tayfası tərəfindən tikildiyi üçün əvvəldə Uğuz qülləsi adlanmış, zaman keçdikcə bu söz Qız qalasına çevrilmişdir[1]. Belə olduqda Azərbaycanın digər yerlərində olan Qız qalalarının da Uğuzlar tərəfindən tikilməsi fikri meydana çıxa bilər. Şübhəsiz ki, bu fikir ağlasığan deyildir. Çünki mənbələrin verdiyi məlumata görə Uğuzlar köçəri tayfa olmuşlar. Heç bir tarixi mənbədə bu tayfanın tikinti işləri aparması haqqında fakta rast gəlmək olmur. Prof. Y. A. Paxomovun fikrincə Azərbaycanda adları yaddan çıxmış qalalara xalq tərəfindən Qız qalası adı verilmişdir[2]. Lakin mövcud faktlar bu fikri də kölgə altına alır. Məsələn, X əsr müəllifi Təbəri yazır ki, Müslüm ibn Əbdülməlik Şirvana hücum edən zaman Qızlar qalası adlı istehkamı alıb dağıtmışdır[3]. Bu məlumatdan aydın olur ki, Qız qalası ya Qızlar qalası adlı istehkam hələ X əsrdə Azərbaycanda var imiş. Bundan başqa Şamaxı yaxınlığındakı qala XII əsrdə Gülüstan qalası adlandığı kimi[4] indi də xalq arasında

[1] R.Haqqı. Azərbaycanın qədim asarından. «Qızıl qələm» jurnalı, № 1924, səh.11, 13.
[2] Y.A.Paxomov. Nizami epoxasının Şirvan qalası. Nizami, I kitab, Bakı, 1940, səh. 66-67.
[3] Tarix-Təbəri. ADU-nun kitabxanasında saxlanılan nüsxə.
[4] Divan Xaqani-Şirvani, Tehran, 1316, səh. 440.

Gülüstan, həm də Qız qalası adı ilə məşhurdur. Bizim fikrimizcə bu qalaya Qız qalası yox, Gülüstan adı sonradan verilmişdir. Qız qalası sözünün əslində «göz» qalası olduğunu da ehtimal edənlər vardır. Bu ehtimalı irəli sürənlərin fikrincə həmin istehkamlardan gözətçi məntəqəsi kimi istifadə edildiyinə görə onlar əvvəldə göz qalası adını daşımış, sonralar isə bu söz Qız qalasına çevrilmişdir. Lakin bu fikir də məntiqə uyğun gəlmir. Çünki Azərbaycan ərazisində gözətçi məntəqəsi rolunu oynayan istehkamlar çoxdur. Yuxarıda qeyd edilən mülahizəyə görə bunların hamısına «göz» qalası deyilməli idi. Bundan başqa Bakı, Şamaxı, İsmayıllı Qız qalaları kimi əzəmətli istehkamları təkcə gözətçi məntəqəsi kimi başa düşmək düzgün olmazdı.

Aleksandroviç (Nasifi) Qız qalalarının tikilməsini Şərqdə qadınların kişilərə nisbətən az olması və çox arvadlılığın geniş yayılması ilə izah edir. Həmin müəllifin fikrincə bu vəziyyətlə əlaqədar qızların qaçırılması meydana çıxırdı ki, bu adət indi də Azərbaycanın bəzi yerlərində davam etməkdədir. Xüsusilə müharibələr zamanı qızların qaçırılması qorxusu ciddi vəziyyət alırdı. Bununla əlaqədar feodal-zadəgan qızlarının möhkəm, alınmaz istehkamlarda saxlanması zərurəti meydana çıxırdı. Orta əsr hökmdarları bunun üçün qalalar tikdirib təhlükəli vaxtlarda öz ailələrini bu istehkamlarda saxlayırdılar. Bu tip qalalara Azərbaycanda Qız qalası adı verilmişdir[1]. Bu mülahizə ilə əlaqədar qız qalası sözündə nəzərdə tutulmuş «qız» məfhumunun «alınmazlıq», «bakirəlik» mənasında qəbul edilməsi fikri də meydana çıxmışdır. Belə ki, bir çox tədqiqatçılar, o cümlədən Pirniya düşmən tərəfindən heç bir zaman alınmayan qalalara Qız qalası adı verilməsini irəli sürür. Hindistandakı Qız qalası haqqında mənbələrdə verilən məlumat bu cəhətdən maraqlıdır. Beyhəqi yazır ki, «Bu qalanı bakirə qız kimi heç kim fəth edə bilməmişdi».

Qız qalalarının mənşəyi haqqında söylənən son mülahizələr də maraqlıdır. İran tədqiqatçısı Bastani Parizinin fikrincə burada qız məfhumu qədim Şərqdə müqəddəs sayılan su ilahəsi Anahita ilə əlaqədardır. Qız qalaları əvvəldə həmin ilahənin şərəfinə tikilmiş abidələr olmuşdur.

Su ilahəsi Anahita və Mitraya sitayişin geniş bir ərazidə yayıldığını və bu ərazinin Qız qalası yayılan əraziyə təqribən uyğun gəldiyini, eləcə də Anahita üçün xas olan məbədlərin Qız qalaları kimi əlçatmaz yerlərdə, möhkəm istehkamlar formasında tikilməsini nəzərə alaraq Qız qalası sözündə «qız» məfhumunun təkcə alınmazlıq mənasında deyil, su ilahəsi ilə əlaqədar meydana gəldiyini söyləmək olar. Lakin qeyd etmək lazımdır ki, su ilahəsi Anahita və Mitra zərdüştizm ilə əlaqədar olduğu üçün o, təkcə bir ölkə və ya bir tayfaya məxsus deyil, Şərqin böyük bir hissəsinə aid olmuşdur. O, tarixən od ilahəsi Mitra ilə birgə meydana

---

[1] Дж.Александрович. Легенда о Девичьей башне. АЗКОМСТАРИС. Bakı, III buraxılış, 1927, səh.163-167.

çıxmış və bəzən də zərdüştizmin əsas simvolu kimi təzahür etmişdir. Görünür ki, su ilahəsi Anahita və Mitra ilə əlaqədar tikilən istehkamlar orta əsrlərdə, yəni islamiyyətin yayıldığı bir dövrdə öz əvvəlki dini xarakterini itirib, sadəcə olaraq müdafiə istehkamlarına çevrilmişdir. Bunlar dövrün başqa istehkamlarına nisbətən daha möhkəm olduqları üçün hökmdarların nəzərini cəlb etmiş, təhlükə zamanı onlar öz ailələrini bu qalalarda qoruyub saxlamışlar. Sonralar bu abidələr dəfələrlə bərpa və yenidən tikilsə də həmin ənənə əsasında Qız qalası adlanmışdır. Deməli, tarixən su ilahəsi ilə əlaqədar irəli gəlmiş «qız» məfhumu orta əsrlərdə qızların bu istehkamlarda qorunması ilə sabitləşmişdir. Belə olduqda Buğurt qalası yaxınlığındakı Qız qalası adlı abidə dövr etibarı ilə daha qədimlərə gedir. Bunu Qız qalasının yaxınlığında olan qədim qəbiristanlıq və oradan əldə edilən materiallar da təsdiq edir. Tədqiqat zamanı Qız qalası dağının ətəyindəki qəbiristanlıqda küp qəbirlərə təsadüf edilmişdir. Qəbirlər dağılmışdır. Buradan əldə edilən qablar ilk orta əsrlər üçün xarakterikdir. Onlardan biri şarşəkilli qabdır. Qab qırmızımtıl gildən hazırlanmışdır. Onun lent formalı qulpu vardır. Digər qab isə tərkibində çox qum olan bozumtul gildən uzunsov formada düzəldilmişdir. Çiyinlərində qulpu əvəz edən çıxıntılar vardır. Həmin qablar və yerli əhalinin qəbiristanlıqda aşkar olunan digər küplər haqqında söylədikləri məlumatları nəzərə alaraq burada küp qəbirlər mədəniyyəti dövrünə aid qəbiristanlıq[1] və onunla əlaqədar yaşayış yeri olduğunu söyləmək mümkündür. Yəqin ki, Qız qalası həmin yaşayış yeri sakinlərinin ilk istehkamı olmuşdur. Bu fikir Berkut adlı qədim türk tayfasının həmin ərazidə sakin olması ideyasına da uyğun gəlir.

Tədqiqat zamanı Qız qalası dağı da nəzərdən keçirilmişdir. Qeyd etdiyimiz kimi bu dağ Buğurt qalasının cənub qurtaracağını təşkil edir. Dağın zirvəsində qərb tərəfdə yarımdairəvi bürcü olan dördkünc bir tikinti vardır. Həmin tikinti enli bir divar vasitəsi ilə qalanın ön istehkamı ilə birləşdirilmişdir. Bu tikintinin nə vəzifə daşımış olduğunu dəqiq söyləmək çətindir. Lakin qalanın istehkamlarına nisbətən həmin tikintidə arxaik elementlər müşahidə edilir. Çox güman ki, Buğurt qalası tikilməmişdən əvvəl bu abidə mövcud olmuş və dini məqsədə xidmət etmişdir. Qala tikilən zaman isə ondan istehkamın müəyyən hissəsi kimi istifadə edilmişdir.

[1] Küp qəbirlər mədəniyyəti Azərbaycanda eradan əvvəl II və eramızın VI əsrlərində geniş yayılmışdır. A. B. Nuriyev bu mədəniyyətin VII-VIII əsrlərə qədər Şirvanda davam etdiyini göstərir. Bu qəbirlərdə meyitlər bükülü halda müxtəlif istiqamətlərə doğru basdırılmışdır. Tədqiqatçıların fikrincə bu hal ilin müxtəlif fəsillərində və günün müxtəlif vaxtlarında meyiti günəş olan tərəfə doğru təzim halında basdırmaq inamı ilə əlaqədar olmuşdur ki, bu da yalnız günəşə sitayiş ilə izah edilə bilər.

# TARİXİ VƏ ARXEOLOJİ TƏDQİQATIN NƏTİCƏLƏRİ HAQQINDA

Buğurt qalasının nə zaman tikilməsi barədə əldə dəqiq məlumat yoxdur. Monqol hücumu zamanı şirvanşah Şamaxı yaxınlığında olan alınmaz bir qalada gizlənir. Əgər şirvanşah Şamaxı şəhərinin monqollar tərəfindən tutulduğunu nəzərə alıb onlardan uzaq, daha təminatlı bir yerə qaçmağı lazım bilmişsə, bu yer ancaq Buğurt qalası ola bilərdi. Yuxarıda qeyd etdiyimiz kimi Buğurt qalasının gizlənmək üçün daha əlverişli olması bu fikri qüvvətləndirir. Məhz buna görə idi ki, monqollar Şamaxı şəhərini tutmalarına baxmayaraq «şirvanşaha sülh təklif edib, onunla vuruşmaqdan vaz keçirlər»[1].

XIV əsrin əvvəllərində şirvanşah öz istiqlalını qorumaq üçün cəlayirilərə qarşı çıxır. Nəticədə cəlayirilər Şirvana hücum edirlər. Bu hücum zamanı şirvanşah Keyqubad və oğlu Kavusun «dağ üzərində olan möhkəm bir qalada» özlərini müdafiə etmələri haqqında mənbələrdə məlumata rast gəlmək olur. Həmin məlumatda qeyd edilir ki, cəlayiri qoşunları üç ay şirvanşahın yerləşdiyi qalanı mühasirədə saxlayırlar. Nəhayət, şirvanşah yerli ruhanilərin vasitəçiliyi ilə təminat alıb qaladan aşağı enir və təslim olur[2]. Bu hadisə Buğurt qalasının yaxınlığında olan Keşməddin kəndinin adının əmələ gəlməsi barədə yuxarıda qeyd etdiyimiz rəvayətə uyğun gəlir[3].

XVI əsrin əvvəllərində səfəvilər Şirvanı tutmaq istədikdə bir sıra müharibələr aparırlar. Mənbələrdə bu müharibələrdən danışılarkən Buğurt qalasının adı aydın çəkilir. Məsələn, Həbibüsiyərin müəllifi qeyd edir ki, şah İsmayıl Şirvana hücum edən zaman şirvanşah Buğurt qalası ilə Gülüstan qalası arasındakı meşədə gizlənir[4]. Başqa bir mənbədə qeyd edilir ki, şirvanşah Buğurt qalasına qaçıb gizlənmək istədiyi vaxt tutulur[5]. Təkcə bu hadisə deyil, bundan sonrakı müharibələrdə də Şirvan hökmdarları təhlükəli vaxtlarda Buğurt qalasına pənah aparırlar. XVI əsrin axırlarında Buğurt qalası Şirvan hökmdarlarının əsas müdafiə qalasına çevrilir. Bu dövrdə Gülüstan qalası özünün birinci dərəcəli hərbi müdafiə əhəmiyyətini itirir. Bu isə, hər şeydən əvvəl, həmin dövrdə hərbi texnikanın inkişafı, Buğurt qalasının strateji cəhətdən Gülüstana nisbətən daha əlverişli və əlçatmaz olması ilə əlaqədardır. 1938-ci ildə I Təhmasib Şirvanda baş verən daxili çəkişmələrdən istifadə edərək qardaşı Alxas Mirzəni çoxlu ordu ilə Şamaxıya tərəf göndərir. Bu zaman Şirvan hökmdarı Şahrux və vəkili Hüseyn bəy Buğurt qalasında özlərini müdafiə edirlər. Alxas Mirzə Buğurt qalasını mühasirə

---

[1] Tarix-Həmzəye İsfahani. Səh. 215.
[2] Б.Дорн. К истории кавказских стран и народов. Azərbaycan SSR EA Tarix İnstitutunun elmi arxivi, iş № 1741, səh. 38.
[3] Bax, səh. 15.
[4] Həbibüsiyər, səh. 393.
[5] Əhsən Əttəvarix, səh. 198.

edir. Mühasirə 4 ay çəkir. Nəhayət, Şirvan əyanları «Şah özü gəldiyi təqdirdə» qaladan çıxıb təslim olacaqlarını bildirirlər[6]. Mənbələrdə qeyd edilir ki, şah Mərənddən gəlib, Buğurt qalası yerləşən dağın ətəyində dayanır. Yalnız bu zaman qala sakinləri təslim olurlar. Bu hadisədə Şirvan əyanlarının təklifi ilə səfəvi şahının hesablaşması öz-özlüyündə qalanın alınmaz və möhkəm olduğunu göstərir. Başqa mənbələrin verdiyi məlumata əsasən Alxas Mirzə qalanı ala bilmir. Təhmasib özü böyük bir ordu ilə Buğurt qalasına gəlməyə məcbur olur. O. A. Əfəndiyev tarix-elçi-nizamşaha əsaslanaraq yazır ki, qala sakinləri qızılbaşların qarşısında mərdanə dayanıb vuruşurdular. Bu zaman I Təhmasib qalanı top atəşinə tutur. Həmin müəllif Buğurt qalasını şirvanşahların ənənəvi olaraq xəzinəsinin saxlandığı yer adlandırıb göstərir ki, burada olan mal və dövlətin sayı-hesabı yox idi. Buradan aydın görünür ki, I Təhmasib Şirvan əyanlarının dəvəti ilə deyil, özü müharibəni davam etdirmək üçün Buğurt qalasına doğru gəlmişdir. Hər iki hal Buğurt qalasının möhkəm və alınmaz olmasına dəlalət edir. Burada qalanın top atəşinə tutulması faktı dövrün hərbi texnikasını öyrənmək cəhətdən əhəmiyyətlidir. Tarixi mənbələrdən məlum olur ki, XVII əsrdə I Abbas da Şamaxını almaq üçün Gəncədən ağır daşlar atan toplar gətirir. «Zübdətü-Əttəvarix»in müəllifi yazır: «Qızılbaşlar Şamaxı şəhərini mühasirə edib su yollarını kəsdilər. Şamaxı qalasının mühasirəsi uzun çəkdi. Gəncə hakimi böyük daşlar atan toplar tədarük edib Şamaxıya göndərdi».

1968-ci ildə Şamaxı şəhəri ərazisində tədqiqat aparılarkən 40 sm diametri olan şar formalı daşlar tapılmışdır (şəkil 15). Bunlar yəqin ki, I Abbasın toplarının mərmiləridir... Bu əsas üzrə demək olar ki, I Təhmasibin Buğurt qalasını almaq üçün gətirdiyi topların mərmiləri də həmin tipdən imiş. Çox güman ki, qalanın qərb tərəfində olan Topxana adı da həmin hadisə ilə əlaqədar meydana gəlmişdir.

Səfəvi tarixçisi İskəndər Münşünün yazdığına görə bu müharibələr zamanı həm Gülüstan, həm də Buğurt qalası Təhmasibin əmri ilə dağıdılmışdır. Belə bir əzəmətdə olan qalaların müharibədə dağıdılması məntiqə uyğun deyil. Yəqin ki, İskəndər Münşü Səfəvi qoşunlarının əzəmətini göstərmək üçün belə bir mübaliğəyə yol vermişdir. Belə ki, həmin hadisədən çox sonra Abdulla xan Şirvan bəylərbəyisi olan zaman türk sultanı Süleyman paşa Şirvana hücum edir. Bu zaman türk qoşunlarının başçısı Qasım bəy Buğurt qalasından hərbi müdafiə məntəqəsi kimi istifadə edir.

Bu dövrdə Qafqaz və İrana səfər etmiş ingilis taciri və səyyahı Antoni Cenkinson Şamaxı şəhərinə gəlir. Bu səfər haqqında o yazdığı qeydlərində Şirvan hökmdarı Abdulla xanın sarayı haqqında maraqlı məlumat verir. Cenkinsonun yazdığından məlum olur ki, Abdulla xan onu öz sarayına dəvət edir. Bu zaman, hava çox isti olduğu üçün hökmdar onu Şamaxıdan 20 mil məsafədə hündür dağ

---

[6] Əhsən Əttəvarix, səh. 260.

üzərində qurulmuş böyük bir çadırda qəbul edir, ona öz yanında oturmaq üçün yer göstərir. Cenkinson öz qeydlərində Abdulla xanın çadırı və geyimi haqqında maraqlı məlumat verir. Çox güman ki, Cenkinsonun təsvir etdiyi saray Buğurt qalası və ya ona yaxın dağlar döşündə yerləşirmiş. Çünki bu dövrdə Şamaxıdan 20 mil məsafədə hökmdarın özü və ordularının yerləşməsi üçün ən münasib məkan Buğurt qalası ola bilərdi. Buğurt qalası ətrafında yaylaq yerlərinin olması həmin fikrin həqiqətə uyğun gəldiyini göstərir.

Biz yazılı mənbələr əsasında Buğurt qalasının tarixi ilə tanış olduqda həmin qalanın XV əsrdən mövcud olması aydın şəkildə müəyyənləşir. Bundan əvvəlki dövrlərdə, eləcə də monqol istilası zamanı Buğurt qalasının mövcud olduğunu söyləmək olarmı?

Şübhəsiz bu suala yalnız arxeoloji tədqiqatla cavab vermək mümkündür. Bu məqsədlə 1966 və 1970-ci illərdə Buğurt qalasında arxeoloji tədqiqat işləri aparılmışdır. Tədqiqat zamanı qalanın ətrafından bir sıra arxeoloji materiallar əldə edilmişdir ki, bunlar qalanın tarixini dəqiqləşdirməyə kömək edir. Həmin materiallar əsasən şirli, şirsiz saxsı məmulatı, fayans, farfor qab parçaları, şüşə və metal zinət vasitələrindən ibarətdir.

Şirli saxsı məmulatı anqob üstdən cızma üsulu ilə naxışlanmış, üzərinə şəffaf şir çəkilmiş qab parçalarından ibarətdir. Bunların içərisində səkkiz guşəli ulduz və bir-biri içərisinə keçirilmiş hörmə formalı naxışı olan şirli qab oturacaqları diqqətəlayiqdir. Ulduz naxışı çox orijinal bir şəkildə qoşa dairələr içərisində həkk edilmişdir. Ulduzun uclarından mərkəzinə doğru çəkilən xətlər və xətlərin ətrafına ustalıqla vurulan nöqtələr onu olduqca qabarıq şəkildə göstərir.

Ulduz naxışı Şirvan və Şamaxı ustalarının çox sevdikləri motivlərdən biridir. Bu tip naxışlara ən qədim dövrlərdən başlamış XVII-XVIII əsr abidələrində rast gəlmək olur. Lakin qeyd etdiyimiz ulduz naxışı Şamaxıdan əldə edilən ulduz naxışlı qablardan fərqlənir. Əgər Şamaxı qabları üzərindəki ulduz naxışları altı guşəlidirsə, bu, səkkiz guşəlidir. (şəkil 16a). Çox ehtimal ki, Şamaxı abidələrində ulduz naxışının geniş yayılması həmin ərazidə yaşamış qədim insanların dini adətləri, o cümlədən səma cisimlərinə sitayiş etmələri ilə əlaqədardır. Bir-biri içərisinə keçirilmiş hörmə formalı naxışa gəldikdə, qeyd etmək lazımdır ki, bu naxış monqol pulları üzərində geniş yayılmış motivlərdən biridir (şəkil 16 b).

Digər şirli qab parçaları da bir sıra xüsusiyyətlərinə görə diqqəti cəlb edir. Bunlardan quş qanadını xatırladan naxış və nəbati təsvir olduqca canlı və orijinaldır. Başqa şirli saxsı qab parçaları isə bir sıra oxşar cəhətlərinə görə Qəbələ və Örənqala materiallarını xatırladır.

Şirsiz saxsı məmulatı Azərbaycan orta əsr şəhərlərində geniş yayılmış səhəng, küp, qazan, kuzə və tava tipli qabların qırıqlarından ibarətdir. Bu tip saxsı qab parçalarına Buğurt qalası ərazisində hər addımda rast gəlmək olur. Bu isə XI-XIII əsrlərdə həmin ərazidə məişətin zəngin olduğunu göstərir.

Qaladan tapılan fayans qab parçaları öz rəngarəngliyi ilə diqqəti cəlb edir. Onların naxışları nəbatidir. Əksəriyyəti Şərq ölkələrindən gətirmədir. Orta əsr feodal və zadəganların məişətində geniş yayılmış bu tip qablar Buğurt qalasında təkcə hərbi adamların deyil, cəmiyyətin yüksək təbəqəsinə mənsub şəxslərin də yaşamasından xəbər verir (şəkil 17).

Tapıntılar içərisində en kəsiyi dairəvi və yarımdairəvi olan çoxlu şüşə bilərzik qırıqları da vardır. En kəsiyi yarımdairəvi olan bilərziklərin bəziləri gözəllik üçün inkrustasiya edilmişdir (şəkil 18 a, v). Bu tip şüşə bilərziklərin oxşarı Azərbaycanın bütün orta əsr şəhərlərindən XI-XV əsrlərə aid mədəni təbəqələrdən məlumdur.

Zinət vasitələri içərisində dəvəgözü daşından hazırlanmış, həkk etmə üsulu ilə bədii şəkildə naxışlanmış medalyon (şəkil 19 d), şüşə muncuqlar və daşdan düzəldilmiş düymə qırıqları da vardır (şəkil 19 q, ğ).

Tədqiqat zamanı qala ərazisindən tapılan tunc asma daha maraqlıdır. Asmanın yuxarı dairəvi hissəsi eşmə formasındadır. Dairənin içərisindəki boşluğa iki xırda yarımkürəcik lehimlənmiş, ətrafına isə xırda halqalar yapışdırılmışdır. Bu halqalardan uzunsov, nazik tunc lövhələr asılmışdır. Bu asmadan sırğa və ya döş zinəti üçün istifadə edildiyini söyləmək olar (şəkil 19 b).

Buğurt qalası yerləşən dağın zirvəsi və ətrafından külli miqdarda zinət vasitələrinin tapılması XI-XIII əsrlərdən başlayaraq XVII-XVIII əsrlərə qədər burada ailə həyatının davam etdiyini göstərir. Bu göstərir ki, Buğurt qalası təkcə müdafiə qalası deyil, eyni zamanda rövnəqli yaşayış yeri və Şirvan hökmdarlarının yay iqamətgahı olmuşdur.

Buğurt qalasından başqa Qaleybuğurt kəndində də elmi axtarışlar aparılmışdır. Nəticədə məlum olmuşdur ki, Qaleybuğurt kəndinin özü də dövr etibarı ilə qədimdir. Kəndin adından aydın olur ki, o, qala tikildikdən sonra onunla əlaqədar meydana gəlmişdir. Bu kəndin ərazisini gəzdikdə az yonulmuş daşla tikilmiş orta əsr bina qalıqlarına və saxsı məmulatına təsadüf etmək olur.

Kəndin cənubunda meşəlik içərisində Təmam-Əddarı adlı pir vardır. Burada çay daşları ilə tikilmiş günbəz formalı tikintinin xarabaları diqqəti cəlb edir (şəkil 20). Tikintinin qarşısında yonma daşla hörülmüş, üzərində böyük başdaşı olan qəbir vardır (şəkil 21). Daşın bir tərəfində qur'an ayələri və mərhumun ölümünə həsr olunmuş fars dilində şer, digər üzündə isə at, gülabdan təsvirləri həkk edilmişdir. At və gülabdan təsvirlərinin ortasında ərəbcə hicri 877 tarixi yazılmışdır ki, bu da 1469-1470-ci ilə bərabərdir.

Beləliklə, yazılı mənbələrdə XVI əsrdən başlayaraq Buğurt qalası adına təsadüf edilməsinə baxmayaraq arxeoloji tədqiqatın nəticələri burada ən geci XI-XIII əsrlərdə yaşayış olduğunu göstərir. Şübhəsiz, XI-XIII əsrlərdə Buğurt qalası XV-XVI əsrlərdəki əzəmətdə deyilmiş. Arxeoloji qazıntı nəticəsində Şamaxıdan tapılan materialların oxşarına Buğurt qalasında təsadüf edilməsi XI-XIII əsrlərdə qalanın Şamaxı ilə sıx iqtisadi əlaqədə olduğunu göstərir. Belə bir nəticəyə gəlmək

olur ki, orta əsrlərdə Şamaxı və Gülüstan qalası təhlükə altında olduğu zaman Buğurt qalası şirvanşahların sığınacaq məntəqəsi olmuşdur. Şamaxı ilə Gülüstan qalası arasında təhlükə zamanı əlaqə gündüzlər tüstü, gecələr isə alov vasitəsilə saxlanılırmış.

## FİT QALASI VƏ YA ŞİRVAN HÖKMDARLARININ SON İQAMƏTGAHI

Fit qalası Şamaxı şəhərinin şimal-qərbində, 35 km məsafədə Sulat və Basqal kəndlərinin yaxınlığında, 1810 m ucalığı olan Fit dağının zirvəsində yerləşir (şəkil 22). Bu dağ özü də hər tərəfdən əlçatmaz Lahıc dağları ilə əhatə olunur. Bu dağlar silsiləsi məşhur Babadağ, Niyal dağı və nəhayət Qafqaz sıra dağlarına söykənir. Bu yerlərə keçmişdə insan ayağı nadir hallarda dəyə bilərdi. Buna görə də təsadüfi deyil ki, XIX əsrin axırları və XX əsrin əvvəllərinə qədər nəinki «Fit» qalası, hətta Fit dağının özü də coğrafi xəritələrdə qeydə alınmamışdır.

Fit qalasının əlçatmaz bir dağın zirvəsində tikilməsinə baxmayaraq, o, divarlarla da əhatə olunmuşdur. Bu divarların eni təqribən 3 m-dir. Yıxılıb dağıldığı üçün onların ucalığını müəyyən etmək mümkün deyil. Lakin mütəxəssislər divarın enindən onun ucalığının ən azı beş metr olduğunu ehtimal etmişlər. Qala divarındakı bürclərin qalıqları əsasında onların dördkünc və yarımdairəvi şəkildə olduğunu söyləmək mümkündür.

Qalanın içərisindəki binalar da tamamilə dağılmışdır. Geniş darvazadan içəri girəndə böyük bir binanın xarabaları diqqəti cəlb edir. Yerli əhali buranı Qalabəyi binası adlandırır. Bu binanı keçdikdən sonra, dağın qülləsinin səthi boyunca bir çox bina xarabaları görünür. Çox güman ki, bunlarda qala döyüşçüləri yaşamışlar. Dağın ən hündür nöqtəsində Xan evi adlanan böyük bir bina vardır. Yerli əhali buranı Mustafa xanın qalası adlandırır.

Fit qalası yerləşən dağın ətrafı müxtəlif tikinti qalıqları ilə örtülüdür. Bunlardan bir hissəsi karvansara, bir hissəsi hamam və bir hissəsi də divanxana adlanır. Yerli əhalinin söylədiyinə görə bura Fit şəhərinin xarabalarıdır.

Fit qalasının nə zaman tikilməsi barədə əldə dəqiq məlumat yoxdur. Bəzi tədqiqatçılar burada hələ XI-XII əsrlərdə müdafiə qalası olduğunu ehtimal edirlər[1]. Hüdud «Əl aləm» əsərində Şamaxıdan bir fərsəx aralı Niyal adlı qalanın olduğu qeyd edilir. Güman ki, həmin qala Fit qalasıdır.

Fit qalası barədə əlimizdə olan məlumatın bir hissəsi də Şirvan xanlıqları dövrünə, yəni XVIII-XIX əsrlərə aiddir. Bu dövrə aid məlumatlardan birində deyilir ki, Şirvan xanı Mustafa xan Fit qalasına üç arşın enində divar çəkdirmişdi. Bu işə o, 3 min adamı cəlb edir. 1795-ci ildə Qacar Ağa Məhəmməd xanın hücumu zamanı Mustafa xan Fit qalasına çəkilir. O, Ağsu şəhərini buraya köçürür. Bu iş

[1] А.П.Фитуни. Истории последней столицы Ширвана. АЗКОМСТАРИС, вып. III, Баку, 1927. 75-140.

Abbas Mirzənin zamanında da təkrar olur[2]. Məhz buna görə də Fit qalası tarixi arxeoloji ədəbiyyatımızda Şirvan hökmdarlarının son iqamətgahı adı ilə məşhurdur.

Fit qalası barədə xalq arasında yayılan əfsanələr də diqqətəlayiqdir. Onlardan birində deyilir ki, vaxtilə Şirvan hökmdarının gözəl bir qızı olmuşdur. Bu qız atasının iradəsi əksinə olaraq bir çobanı sevir. Çoban hər gün çöldə daş üstə oturub ney çalar, qız isə bu neyin sədası ilə onunla tapışardı. Bir gün sirrin üstü açılır. Hökmdar qızına çobanla görüşməyi qadağan edir. Lakin qız öz təmiz eşqini hər şeydən üstün tutur. Atasının əmrini rədd edir, qəsrdən uzaqlaşmaq qərarına gəlir. Ancaq bu işə müvəffəq olmur. Hadisədən qəzəblənən hökmdar Fit dağında bir qala tikdirib qızı orada həbs etdirir. Çoban bu işdən xəbər tutduqda çox çətinliklə özünü Fit dağına çatdırır. O, qala divarının arxasında neyini çalmağa başlayır. Öz sevgilisinin ney sədalarına aşina olan qız bu səsi eşidən kimi qala divarının üstünə çıxıb özünü çobanın ağuşuna atır. Lakin onlar qaçmaq istədikdə hökmdarın adamları vasitəsilə tutulurlar. Çoban qalanın yaxınlığındakı bir təpədə öldürülür, qız isə özünü qayalardan atıb həlak edir. Bu vaxtdan etibarən çobanın öldürüldüyü təpə «Qanlı təpə» adlanır və onun çaldığı neyin sədası dağın qayalarında nəqş bağlayaraq həmişə səslənir. Məhz buna görə də bu qala «Fit» qalası adlanır.

Bu əfsanə Fit qalasının coğrafi mövqeyinə uyğun gəlir. Doğrudan da külək əsəndə bu dağın qayalarından fit səsinə oxşar səda eşidilir ki, bu da çobanın ney səsləri ilə bir növ uzlaşır. Fit qalası haqqında söylənən başqa bir əfsanə də bu qalanın tikilməsi tarixi cəhətdən maraqlıdır. Həmin əfsanəyə görə vaxtilə bu dağın zirvəsində divlər yaşayıbmış. Heç kim bu dağın zirvəsinə çıxmaq qüdrətinə malik olmayıb. Bir gün Girdman hakimi həmin dağın zirvəsinə çıxmaq, divləri qovmaq qərarına gəlir. O, çox çətinliklə divlərlə vuruşa-vuruşa dağın zirvəsinə qalxır və öz məqsədinə çatır. Girdman hakimi bu qələbəsi münasibətilə həmin dağın zirvəsində möhkəm bir qala tikdirir.

Fit qalası və onun ətrafında aparılmış ilk arxeoloji tədqiqatın nəticələri burada Sasani dövründən yaşayış olduğunu göstərir[3]. Arxeoloji tədqiqat vaxtı bu ərazidən tapılan materiallar içərisində Sasani padşahı II Xosrovun gümüş sikkələri, orta əsrlər üçün xarakterik olan saxsı qab parçaları, XVI-XVII əsrlərə məxsus metal silah, tunc, gümüş zinət vasitələri, XVII-XVIII əsrlərə məxsus mis qablar vardır. Bunlar Fit qalası və onun ətraf ərazisində VI-VII əsrlərdən başlayaraq yaşayış olduğunu göstərir. Tikinti qalıqlarından aydın olur ki, bura yalnız Mustafa xan dövründə böyük istehkam halına salınmışdır. 1970-ci ildə qala ətrafından topladığımız saxsı məmulatı bunu təsdiq edir. Bu dövrdə məhz Fit qalası

---

[2] A. Bakıxanov. Gülüstani-İrəm. Bakı. 1970, səh. 175, 178, 189.

[3] A.P. Fituni. Göstərilən əsəri, səh. 75-140.

kimi əlçatmaz yerdə olan istehkam dövrün hərbi qüvvələrinə qarşı müqavimət göstərə bilərdi. Deməli, Fit qalası Şirvan hökmdarlarının son iqamətgahı olmuşdur.

***

Əsrlər boyu Şirvanın mərkəzi olmuş Şamaxı şəhərinin qısa tarixi, onun qala divarları və ətraf müdafiə istehkamları ilə tanış olduqda aşağıdakı nəticələrə gəlmək olur:

1. IX-X əsrlərdən başlayaraq Şamaxı şəhəri indiki ərazidə feodal şəhəri kimi inkişaf edərək, XI əsrdən gec olmayaraq qala divarına malik olmuşdur.

2. Orta əsrlərdə Şamaxı şəhərinin yaxınlığında Gülüstan və Buğurt kimi əzəmətli qalalar tikilmişdir. İlk dövrlərdə Şirvan hökmdarları təhlükə zamanı özlərini Gülüstan qalasında, sonralar isə Buğurt qalasında müdafiə etmişlər.

3. Buğurt qalası olduqca əlverişli strateji yerdə - Qafqaz sıra dağlarının meşəliklə örtülü olan cənub hissəsində yerləşir. Təbii maneələrdən başqa, qala daşla hörülmüş möhkəm divarla əhatə olunmuşdur. Bu divarın arxasında, dağın ən yüksək zirvəsində Narınqala yerləşir. Yerli əhali buranı «Şah evi» adlandırır. Bura şirvanşahların təhlükə vaxtı gizləndikləri yerdir. Dağın bu hissəsinə çıxmayana qədər orada ev olduğunu güman etmək mümkün deyil.

4. Buğurt qalası kompleksinə daxil olan Qız qalası dağında və onun ətrafında ilk orta əsrlərdən yaşayış olduğunu söyləmək mümkündür.

5. Tarixi mənbələrdə XV əsrdən başlayaraq Buğurt qalası adına aydın rast gəlmək olur. XV-XVI əsrlərdə bu qala Şirvanın əsas müdafiə istehkamı idi. Buna da səbəb başqa qalalara (o cümlədən Gülüstana) nisbətən Buğurt qalasının daha əlverişli strateji məntəqədə yerləşməsi idi.

6. Buğurt qalasından əldə edilən arxeoloji materialları nəzərdən keçirdikdə onların əsasən XI-XIII əsrlərə aid olduğu müəyyənləşir. Bu isə mənbələrdə Buğurt adına XV əsrin axırlarından aydın təsadüf edilməsinə baxmayaraq həmin qalanın ən azı XIII əsrdə mövcud olduğunu söyləməyə imkan verir.

7. XVI-XVII əsrlərdə Buğurt qalası Şirvan ordularının və şirvanşahların xəzinəsinin qorunub saxlanıldığı yer idi. Bu dövrdə qala təkcə hərbi istehkam deyil, həm də yaşayış məntəqəsi olmuşdur.

8. XVII-XVIII əsrlərdə Buğurt qalası ilə yanaşı Fit qalası da Şirvan hökmdarlarının müdafiə işinə xidmət etmişdir. Bu qala strateji cəhətdən daha əlçatmaz bir yerdədir. Fit qalası Şirvan və Şamaxı hökmdarlarının son iqamətgahı olmuşdur.



**Şəkil 1. Gülüstan qalasının şərq bürcünün qalıqları.**



**Şəkil 2. Çoxrəngli şirlə boyanmış qrafik naxışlı şirli qab.**



Şəkil 3. Bir rəngli şirlə boyanmış qrafik naxışlı şirli qab.



Şəkil 4. Basma naxışlı şirsiz qab.



Şəkil 5. Farfor qab qırıqları.




**Şəkil 6. Aşkar olunmuş qala divarının görünüşü və planı.**



**Şəkil 7. Narınqalanın ehtimali görünüşü.**




**Şəkil 8. Adam Olearinin Şamaxıdan çəkdiyi mənzərə rəsmi.**



**Şəkil 9. Buğurt qalası yerləşən dağın uzaqdan görünüşü.**



**Şəkil 10. Yerə oturmuş dəvəyə oxşar qaya.**



**Şəkil 11. Qalanın fəzadan görünüşü.**



**Şəkil 12. Qala dərəsinə baxan gözətçi yer.**




**Şəkil 13. Şah evinin sxematik planı.**



**Şəkil 14. Ön istehkamın qalıqlarından.**



**Şəkil 15. Daşdan düzəldilmiş mərmilər.**



**Şəkil 16. Qaladan tapılmış şirli saxsı qab parçaları.**



**Şəkil 17. Fayans qab parçaları.**




**Şəkil 18. Şüşə bilərzik qırıqları.**




**Şəkil 19. Müxtəlif zinət vasitələri.**



**Şəkil 20. İmaməddin piri.**



Şəkil 21. Pirdəki qəbrin baş daşındakı təsvirləri.



Şəkil 22. Fit qalasının uzaqdan görünüşü.

**MÜNDƏRİCAT**

Orta əsr Şamaxı şəhərinin müdafiə istehkamları və Buğurt qalasının tikilməsi zərurəti
Buğurt qalasının coğrafi mövqeyi və tikinti qalıqları
Qaleybuğurt və Qız qalası
Tarixi və arxeoloji tədqiqatın nəticələri haqqında
Fit qalası və ya Şirvan hökmdarlarının son iqamətgahı

Гусейн Джидди
КРЕПОСТЬ БУГУРТ
(на азербайджанском языке)

Elmi redaktoru *R. Vahidov.*
Nəşriyyi redaktoru *C. Məmmədzadə.*
Rəssamı *M. Quliyev.*
Bədii redaktoru *M. Qasımov.*
Texniki redaktoru *M. Balakişiyev.*
Korrektorları *N. Rəhimova. M. Muradova.*

Yığılmağa verilmiş 5/VII-1973-cü il.
Çapa imzalanmış 13/IX-1973-cü il.
FQ 15782. Kağız formatı 70x103 $^{1}/_{32}$
Kağız № 2. Fiziki çap vərəqi 1,75
Şərti çap vərəqi 2,45. Uçot nəşr vərəqi 2,3.
Sifariş № 320. Tirajı 4500.

Azərbaycan SSR Nazirlər Sovetinin Dövlət Nəşriyyat,
Poliqrafiya və Kitab Ticarəti İşləri Komitəsi.

Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, Hüsü Hacıyev küçəsi, № 4.

Ruhulla Axundov adına mətbəə. Bakı Fəhlə prospekti, 96.